Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən həmin dərslik və dərslik komplektlərinin tirajı, həcmi və çap formatları təsdiq olunub.

Ümumtəhsil məktəblərinin II sinifləri üçün nəzərdə tutulan 40 adda dərslik və müəllim üçün vəsaitin hazırlanması və çapına dair dövri mətbuatda verilmiş elana uyğun olaraq nəşriyyatlar öz tender təkliflərini bu ilin mayında Təhsil Nazirliyinə təqdim edəcəklər. Dərslik komplektlərinin qiymətləndirilməsindən sonra mövcud qanunvericiliyə uyğun olaraq çap işləri təşkil olunacaqdır.

Nəşri nəzərdə tutulan 87 adda dərslik və müəllim üçün vəsaitdən 47 adda dərslik V-XI siniflərin şagirdləri üçün çap olunacaqdır. Artıq həmin dərsliklər orta məktəblərin qabaqcıl müəllimlərindən yaradılmış işçi qrupları tərəfindən oxunur, onların təqdim edəcəkləri rəy və təkliflər müəllif və nəşriyyatlar tərəfindən baxılaraq nəzərə alınacaqdır.